AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
Təhsilin İnkişafı
Fondu

Təhsilin İnkişafı Fondunun
2023-cü il üzrə fəaliyyətinə dair

# HESABAT

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı
Fondu



Təhsilin İnkişafı Fondu Azərbaycan Respublikası Prezidentinin 14 iyul 2021-ci il tarixli fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1 mart 2022-ci il tarixli qərarı ilə Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılıb.

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 7-ci hissəsinin 5.4-cü bəndinə uyğun olaraq qərara alıram:
1. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Təhsilin İnkişafı Fondunu bir ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.
2. Müəyyən edilsin ki:
2.1. Təhsilin İnkişafı Fondu (bundan sonra – Fond) Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələri maliyyələşdirən, dövlət təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasına yardım edən publik hüquqi şəxsdir;
2.2. Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşır:
2.2.1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyindəki təhsil müəssisələrinin (peşə təhsili müəssisələri istisna olmaqla) büdcədənkənar vəsaitindən, habelə ödənişli təhsil xidmətləri göstərilməsindən əldə etdikləri gəlirlərdən ayırmalar;
2.2.2. ianələr, qrantlar və cəlb edilən investisiyalar;
2.2.3. Fondun fəaliyyətindən əldə olunmuş gəlir;
2.2.4. qanunla qadağan olunmayan digər mənbələr.
3. Fondun təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:
3.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:
3.1.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Fondun nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;
3.1.2. Fondun idarəetmə orqanlarının yaradılması;
3.1.3. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Fondun yenidən təşkili və ləğv edilməsi;
3.1.4. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;
3.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə:
3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:
4.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Fondun nizamnaməsini iki ay müddətində təsdiq etsin;
4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
5. Nazirlik:
5.1. tabeliyindəki təhsil müəssisələrinin (peşə təhsili müəssisələri istisna olmaqla) gəlir və xərclərinin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasını təmin etmək məqsədilə onların büdcədənkənar vəsaitindən, habelə ödənişli təhsil xidmətləri göstərilməsindən əldə etdikləri gəlirlərdən Fonda ayırmaların məbləğini iki ay müddətində müəyyən etsin;
5.2. Fondun büdcəsini və xərclər smetasını təsdiq edərkən bu Fərmanın 5.1-ci bəndinə əsasən Fonda ayrılacaq vəsaitdən Nazirlik işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədilə ayırmalar nəzərdə tutsun;
5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2021-ci il

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
Təhsilin İnkişafı
Fondu

# MÜNDƏRİCAT


Haqqımızda ........ 2
Vizyonumuz, Missiyamız, Məqsədlərimiz ........ 3
Təşkilati struktur ........ 4
Dəyərlərimiz ........ 5
Əməkdaşlıqlar ........ 6
Türkiyə Respublikasının müvafiq qurumları ilə əməkdaşlıq ........ 7
“Women in Tech” beynəlxalq təşkilatının
Azərbaycan nümayəndiliyi ilə əməkdaşlıq ........ 8
“Silk Vey Vest Aviaşirkəti” MMC ilə ianə müqaviləsi ........ 8
Dövlət Məşğulluq Agentliyinin “İrəliləyiş” layihəsi ........ 9
Dialoq və Əməkdaşlıq Platforması ........ 9
İnnovasiya və Startap ekosisteminin inkişafı ........ 10
Layihələr ........ 11
Gənc qızların təhsilinə dəstək ........ 12
“4Sİ Akademiyası” layihəsi ........ 13
“Parla” təqaüd və inkişaf proqramı ........ 14-15
“Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanlarının
IELTS imtahanına təşviq edilməsi” layihəsi ........ 16
“Təhsilin inkişafında innovativ metodlar” müsabiqəsi ........ 17
Təhsilin İnkişafı Forumu 2023 ........ 18-19
“Məktəblərə kitab ianəsi” layihəsi ........ 20
“Gənc İnnovatorlar” startap müsabiqəsi ........ 20
“Maarifçi” tələbə-məzun təcrübə proqramı ........ 21
“Dünya standartları: XXI əsrin təhsil sistemini necə qurmalı”
kitabının çapı ........ 21
Xülasə ........ 22
Tərəfdaşlar ........ 23

# HAQQIMIZDA

Təhsilin İnkişafı Fondu Azərbaycan Respublikası Prezidentinin 14 iyul 2021-ci il tarixli fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1 mart 2022-ci il tarixli qərarı ilə Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılıb.

Fondun əsas vəzifəsi təhsilin inkişafı ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında, təhsil və iqtisadiyyatın inteqrasiyasının gücləndirilməsində, təhsilin inkişafını təşviq edən mexanizmlərin hazırlanması və icrasında iştirak etmək, təhsil sisteminin inkişafına yönəlmiş ictimai və sosial əhəmiyyətli proqram və layihələri maliyyələşdirməkdir.












Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı Fondu

## VİZYONUMUZ

İnsanlara zəruri bilik və bacarıqlara yiyələnməklə öz potensiallarını reallaşdırmaq və cəmiyyətə fayda vermək imkanını yaratmaq.



## MİSSİYAMIZ

Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələrin dəstəklənməsi və dövlət təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması yolu ilə təhsilin dayanıqlı inkişafına nail olmaq.

## MƏQSƏDLƏRİMİZ

- Təhsilin inkişafı ilə bağlı dövlət siyasətinin hazırlanmasına dəstək olmaq;
- Təhsil və iqtisadiyyat arasında inteqrasiyanın gücləndirilməsinə töhfə vermək;
- Təhsilin inkişafı üzrə mexanizmlərin hazırlanması və icrasında iştirak etmək.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı Fondu

# TƏŞKİLATİ STRUKTUR



# DƏYƏRLƏRİMİZ

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı
Fondu

## DÜRÜSTLÜK:
fəaliyyətimizdə yüksək mənəvi və etik standartlara riayət edirik.

## MÜKƏMMƏLLİK:
keyfiyyətli və nəticəyönümlü fəaliyyət üçün daim təkmilləşirik.

## ƏMƏKDAŞLIQ:
bütün hədəf qrupları və tərəfdaşlarımızla davamlı əlaqə saxlayırıq.

## HESABATLILIQ:
tərəfdaşlar və cəmiyyət qarşısında şəffaf və açıq mövqe sərgiləyirik.

## SOSİAL MƏSULİYYƏT:
təhsili cəmiyyətin inkişafı üçün ən mühüm amil hesab edirik.

## NƏTİCƏYÖNÜMLÜLÜK:
verilmiş zaman ərzində ölçülə bilən məqsədlərə nail oluruq.

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
Təhsilin İnkişafı
Fondu

# ƏMƏKDAŞLIQLAR












Biz inanırıq ki, təhsildən tərəqiyyə gedilən yol səmərəli tərəfdaşlığa əsaslanır. Buna görə, bütün maraqlı tərəflərlə, o cümlədən dövlət və özəl sektorla, təhsil ictimaiyyəti ilə səmərəli dialoqun qurulması fəaliyyətimizin tərkib hissəsidir. Təhsilin İnkişafı Fondu 2023-cü ildə də özəl və dövlət sektorundan olan müəssisələr, qeyri-kommersiya təşkilatları ilə perspektivli əməkdaşlıqlara başlayıb və mövcud əməkdaşlıqlarını inkişaf etdirib.

# TÜRKİYƏ RESPUBLİKASININ MÜVAFİQ QURUMLARI İLƏ ƏMƏKDAŞLIQ

Türkiyə Respublikasının müvafiq qurumları ilə əməkdaşlığın inkişafı məqsədilə 2023-cü ilin noyabr ayında Fondun İdarə Heyətinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə işgüzar səfəri baş tutub. Bu işgüzar səfər zamanı Fond və Türkiyənin "Bilişim vadisi" Texnoloji İnkişafı Zonası və Gebze Texniki Universiteti ilə gələcək əməkdaşlıq imkanları haqqında müzakirələr aparılıb.








Türkiyənin TED Universitetinin rəhbərliyi ilə Təhsilin İnkişafı Forumu 2023 çərçivəsində əməkdaşlıq qurulub.



# “WOMEN IN TECH” BEYNƏLXALQ TƏŞKİLATININ AZƏRBAYCAN NÜMAYƏNDƏLİYİ İLƏ ƏMƏKDAŞLIQ

“Women in Tech” beynəlxalq təşkilatının Azərbaycan nümayəndəliyi ilə 7 iyul 2023-cü il tarixində Anlaşma Memorandumu imzalanıb. Məqsəd qadınların informasiya texnologiyaları və yüksək texnologiyalar üzrə bilik və bacarıqlarının artırılmasını dəstəkləyəcək birgə təqaüd proqramının yaradılması olub. Nəticədə “Maya Hacıyeva adına İKT bacarıqları” təqaüd proqramı təsis edilib. Layihənin əsas məqsədi qadınların müvafiq sahə üzrə bilik və bacarıqlarını artıraraq cəmiyyətdə öz rollarını tuta bilmələrinə dəstək olmaqdır.

Təqaüd fiziki və hüquqi şəxslər tərəfindən sözügedən layihəyə köçürülmüş ianələr, qrantlar və ya digər daxilolmalar hesabına ayrılıb. Proqrama 15 – 40 yaş aralığında Azərbaycan vətəndaşı olan qadınlar müraciət edirlər.

Hesabat dövrü ərzində layihəyə “Bakcell” şirkəti tərəfindən ianə edilməsi razılaşdırılıb.






# “SİLK VEY VEST AVİAŞİRKƏTİ” MMC İLƏ İANƏ MÜQAVİLƏSİ

Təhsilin İnkişafı Fondunun əsas fəaliyyət istiqamətlərindən biri olan “təhsil müəssisələrinin fiziki infrastrukturunun və maddi-texniki təminatının təkmilləşdirilməsi” istiqaməti sahəsində Təhsilin İnkişafı Fondu və “Silk Vey Vest Aviaşirkəti” MMC arasında ianə müqaviləsi imzalanıb. Dövlət-özəl əməkdaşlığının bariz nümünəsi olan layihə çərçivəsində ölkəmizin müxtəlif şəhər və rayonlarında təhsil müəssisəsinin tikintisi və təmirinin həyata keçirilməsinin dəstəklənməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı Fondu

# DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİNİN "İRƏLİLƏYİŞ" LAYİHƏSİ

Təhsilin İnkişafı Fondu Dövlət Məşğulluq Agentliyinin "İrəliləyiş" layihəsinin tərəfdaşı kimi İctimaiyyətlə əlaqələr və kommunikasiya, layihələrin idarə olunması sahəsində təcrübə keçmək istəyən namizədlərin seçim mərhələsini həyata keçirib. Seçilmiş 3 gənc 3 ay ərzində Fondun müvafiq sahələrində təcrübə proqramında iştirak edib.

Layihənin məqsədi ölkədə fəaliyyət göstərən şirkət və təşkilatlarda, eləcə də dövlət müəssisələrində beynəlxalq normalara uyğunlaşan təcrübə proqramları formalaşdırmaq və yüksək potensiallı gənclərin karyera bacarıqlarını inkişaf etdirmək üçün həmin təcrübə proqramlarında iştirakını təmin etmək olub.





# DİALOQ VƏ ƏMƏKDAŞLIQ PLATFORMASI

Təhsilin İnkişafı Fondu və Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən Təhsilin İnkişafı Forumundan irəli gələn təşəbbüslərin reallaşdırılması və qoyulan məqsədlərə nail olunması üçün 2 noyabr 2023-cü il tarixində Dialoq və Əməkdaşlıq Platformasının qurulması üçün ilkin görüş baş tutub. Görüşdə dövlət, universitet və sənaye qurumları, o cümlədən Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondu, Dövlət Məşğulluq Agentliyi, İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi, Azərbaycan Texniki Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Sumqayıt Dövlət Universiteti, SOCAR, bp Azerbaijan, "NEQSOL Holding", STP Şirkətlər Qrupu, "ProSol QSC"-nin nümayəndələri iştirak ediblər.





# İNNOVASİYA VƏ STARTAP EKOSİSTEMİNİN İNKİŞAFI

Hesabat dövrü ərzində Azərbaycanda İnnovasiya və Startap ekosisteminin inkişafı ilə bağlı mühüm addımlar atılıb. Belə ki, 2023-cü ilin dekabr ayında baş tutan "InMerge Innovation Summit"i çərçivəsində müvafiq tərəfdaşlar arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu Elm və Təhsil Nazirliyi yanında Təhsilin İnkişafı Fondunun sədri Elnur Nəsibov, İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri vəzifəsini icra edən İnarə Vəliyeva, SOCAR-ın vitse-prezidenti Kənan Nəcəfov və "PAŞA Holdinq"in İnnovasiyalar Şöbəsinin müdiri Fərrux Əliyev imzalayıblar.









İmzalanma mərasimində elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, SOCAR-ın prezidenti Rövşən Nəcəf, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev və "PAŞA Holdinq"in baş icraçı direktoru Cəlal Qasımov iştirak ediblər.

Sənədə əsasən, tərəflər innovasiya və startap ekosisteminin inkişafı üzrə tədbirlərin keçirilməsi, layihələrin icrası, ilkin ideya mərhələsində olan startapların inkişafı üçün inkubasiya proqramlarının təşkili sahəsində əməkdaşlıq etməyə başlayıb. Bundan başqa, startapların qlobal bazara çıxışı və akselerasiya proqramlarının keçirilməsi, təhsil müəssisələrində korporativ mühitə addım atmaq istəyən, biznesin əsas elementlərini daha dərindən qavramaq istəyən tələbələrə "Sahibkarlığa Giriş" üzrə təlimlərin və innovasiya və startap ekosisteminin təbliği üçün "Bakı İnvestisiya Günü" ("Baku ID") tədbirinin keçirilməsi istiqamətində razılığa gəlinib.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı
Fondu

# LAYİHƏLƏR



# GƏNC QIZLARIN TƏHSİLİNƏ DƏSTƏK

Dövlətimizin inkişafında gənclərin, xüsusilə qızların rolunun artırılmasını təşviq etmək, onların müasir təhsil imkanlarından faydalanmasına dəstək olmaq Təhsilin İnkişafı Fondunun prioritetlərindən biridir. Bu istiqamətdə 2023-cü il ərzində bir sıra işlər görülüb.



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin və Təhsilin İnkişafı Fondunun əməkdaşlığı ilə "Hənifə Məlikova – Zərdabi" adına təqaüd proqramı çərçivəsində ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan, aztəminatlı ailələrdən və həssas qruplardan olan ilkin mərhələdə seçilmiş 25 nəfər təqaüdçünün sırasına daha sonra 55 nəfər qız da əlavə olunub. Beləliklə, ümumilikdə 80 tələbə qız təhsil müddəti ərzində aylıq 200 manat məbləğində təqaüd ilə təmin olunublar.







Fond tərəfindən təqaüdçülərin şəxsi və peşəkar inkişafına töhfə verəcək müxtəlif layihələr həyata keçirilir.

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
Təhsilin İnkişafı Fondu

# “4Sİ AKADEMİYASI” LAYİHƏSİ

Təhsilin İnkişafı Fondu, İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi və ABŞ-nin “Coursera” şirkətinin birgə əməkdaşlığı çərçivəsində “4Sİ Akademiyası” layihəsi həyata keçirilib.




Layihə çərçivəsində müraciət edən 10 mindən çox şəxsə 1 il ərzində ABŞ-nin qabaqcıl təhsil platforması olan “Coursera” üzərindən dünyanın nüfuzlu universitetlərinin və şirkətlərinin təqdim etdiyi proqramlaşdırma, süni intellekt, böyük verilənlər (big data), rəqəmsal transformasiya, maşın öyrənməsi, blokçeyn və bulud texnologiyaları, kodlaşdırma, data analitikası, eləcə də liderlik, kommunikasiya kimi bacarıqlar da daxil olmaqla ümumilikdə 89 ixtisaslaşdırılmış alt kateqoriyanı əhatə edən 700-dən çox kursa daxil olmaq üçün ödənişsiz təhsil təqaüdü təqdim olunub.



“4Sİ Akademiyası”na ilkin qeydiyyat mərhələsində 6654 nəfər qeydiyyatdan keçib. Ümumilikdə 10 min nəfərin layihədən yararlanması nəzərdə tutulub. Hesabat dövründə 3000 nəfər layihə iştirakçısı qeyd olunan təlimlərdən yararlanıb.

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
Təhsilin İnkişafı Fondu

# "PARLA" TƏQAÜD VƏ İNKİŞAF PROQRAMI

Gənc qızların təhsilinə dəstək proqramı çərçivəsində "NEQSOL Holding" ilə birgə digər önəmli layihənin icrasına başlanılıb. Sosial həssas təbəqədən olan, yüksək akademik göstəricilərə malik tələbə qızların təhsilinə dəstək göstərmək məqsədilə 4 oktyabr 2023-cü il tarixində təqaüd proqramı elan edilib.

İlkin seçim mərhələsində layihəyə 674 nəfər müraciət edib. İlkin mərhələni uğurla başa vuran 102 nəfər müsahibələrə dəvət olunub. Bütün mərhələləri uğurla keçən 50 tələbəyə aylıq 200 manat məbləğində təqaüd veriləcək. Təqaüdlə yanaşı seçilmiş qızlar "NEQSOL Holding"-in şirkətlərində təcrübə keçmək imkanından, eyni zamanda şəxsi və peşəkar inkişafına yönəlmiş təlimlərdən yararlanacaqlar.





AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
Təhsilin İnkişafı Fondu

# MÜSAHİBƏ MƏRHƏLƏSİNƏ DƏVƏT OLUNANLAR ATM-LƏR ÜZRƏ BÖLGÜ




## MÜSAHİBƏ MƏRHƏLƏSİNƏ DƏVƏT OLUNANLAR (NƏFƏR)




## TƏQAÜDÇÜLƏR (NƏFƏR)



Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı
Fondu

# “UNİVERSİTETLƏRİN ELMİ-PEDAQOJİ HEYƏT ÜZVLƏRİ VƏ TƏHSİLALANLARININ IELTS İMTAHANINA TƏŞVİQ EDİLMƏSİ” LAYİHƏSİ

Təhsilverən və təhsilalanların dəstəklənməsi istiqamətində həyata keçirilən başlıca layihələrdən biri “Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanlarının IELTS imtahanına təşviq edilməsi”dir.

Layihənin icrasına 2022-ci ilin oktyabr ayından başlanılıb. Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə birgə icra olunan layihənin tərəfdaşları Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Bakı Slavyan Universitetidir.





Layihə çərçivəsində IELTS imtahanında iştirak edən və yüksək bal toplayan 300-dək akademik heyət üzvü və tələbənin bu imtahan üzrə ödənişləri Fond tərəfindən qarşılanıb.

**GENDER BÖLGÜSÜ**
(nəfər)




**İŞTİRAKÇI KATEQORİYASI**
(nəfər)




**TƏHSİL PİLLƏSİ**
(nəfər)



AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
Təhsilin İnkişafı
Fondu

# “TƏHSİLİN İNKİŞAFINDA İNNOVATİV METODLAR” MÜSABİQƏSİ

Təhsilalanların bacarıqlarının dəyərləndirilməsi və dəstəklənməsi üzrə görülən digər maraqlı bir təşəbbüs “Təhsilin inkişafında innovativ metodlar” müsabiqəsidir.





Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş müsabiqə çərçivəsində 28 yerli ali təhsil müəssisəsinin 150 bakalavr və magistr tələbəsi “İnklüziv təhsilin inkişafı”, “Qeyri-formal təhsil metodları”, ”Təhsildə texnologiyanın tətbiqi”, “Təhsildə idarəetmə” mövzuları üzrə ideya və təkliflərini təqdim edib.





İki mərhələnin sonunda ən yüksək bal toplayan ilk 3 finalçı qalib seçilərək pul mükafatı və sertifikatlarla təltif olunublar.



AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
Təhsilin İnkişafı
Fondu

# Təhsilin İnkişafı Forumu 2023

# TƏHSİLİN İNKİŞAFI FORUMU

İl ərzində özəl sektor nümayəndələri ilə birgə bir çox önəmli layihələrə imza atılıb. 1 noyabr 2023-cü ildə Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə baş tutan və ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan Təhsilin İnkişafı Forumu bu qəbildəndir.




Gülüstan Sarayında yerli və beynəlxalq moderator və spikerlərin iştirakı ilə reallaşan forumda "İnnovasiya ekosisteminin yaradılması", "Universitet – sənaye tərəfdaşlığı", "Gələcək üçün təhsil" panelləri təşkil olunub. Panellərdə təhsil və iqtisadiyyatın inteqrasiyası, təhsil və əmək bazarı, sənaye ilə tərəfdaşlıq strategiyası, sənayenin təhsildən gözləntiləri, əmək bazarının dəyişən tələbləri, süni intellekt və təhsil, əlavə dəyərin yaradılması və digər mövzulardan bəhs olunub.







Dövlət - universitet - sənaye tərəfdaşlığının inkişaf etdirilməsinə yönəlmiş foruma dövlət, sənaye və universitetləri təmsil edən 350-dən çox mütəxəssis qatılıb. Forum çərçivəsində Universitet-Sənaye Tərəfdaşlığı üzrə Dialoq və Əməkdaşlıq Platforması yaradılıb. Forum "NEQSOL Holding", bp Azerbaijan, SOCAR, STP Şirkətlər Qrupu, ABB, "Azərsun Holdinq" və "BestComp Group" MMC-nin dəstəyi ilə baş tutub.

# “MƏKTƏBLƏRƏ KİTAB İANƏSİ” LAYİHƏSİ

Dövlət-özəl tərəfdaşlığı ilə dəstəklənən digər mühüm layihə “İnci Group of Companies” şirkəti ilə əməkdaşlıq çərçivəsində reallaşan “Məktəblərə kitab ianəsi” layihəsidir. Region məktəblərinə klassik dünya və Azərbaycan ədəbiyyatı ilə bağlı kitabların ianə edilməsi məqsədilə baş tutan layihə çərçivəsində Abşeron-Xızı, Mərkəzi Aran, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Lənkəran-Astara və Quba-Xaçmaz, regional təhsil idarələrinin məktəblərinə 4800 kitab ianə edilib.








# “GƏNC İNNOVATORLAR” STARTAP MÜSABİQƏSİ




Azərbaycan Texnologiya Universitetinin İnnovasiya Mərkəzinin təşkilatçılığı, Təhsilin İnkişafı Fondu, “Huawei” şirkəti, “Bir” Tələbə Könüllü Təşkilatının dəstəyi ilə keçirilən müsabiqədə 56 tələbədən ibarət komandalar tərəfindən qida, yüngül sənaye, İKT, nəqliyyat sahəsini əhatə edən bir-birindən maraqlı 28 startap təqdim edilib. 3 qalib komanda pul mükafatı, sertifikat və hədiyyələrlə təltif olunub.







# "MAARİFÇİ" TƏLƏBƏ-MƏZUN TƏCRÜBƏ PROQRAMI

"Maarifçi" tələbə-məzun təcrübə proqramının məqsədi elm və təhsil sahəsində insan resurslarının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək olmaqdır.







Proqrama ümumilikdə 1961 nəfər tərəfindən müraciət daxil olub. Proqramın ildə 2 dəfə olmaqla 3 ay müddətində həyata keçirilməsi nəzərdə tutulur. Proqram iştirakçılarına gündəlik yol və qida xərclərinin qarşılanması məqsədilə Təhsilin İnkişafı Fondunun dəstəyi ilə aylıq qonorar verilməsi nəzərdə tutulur. Proqram çərçivəsində iştirakçılar Elm və Təhsil Nazirliyinin Aparatı, tabe qurumları və regional təhsil idarələrində təcrübə keçmək imkanı əldə edəcəklər. Təcrübə proqramı çərçivəsində tələbə və məzunlar nazirliyin struktur bölmələrində həyata keçirilən layihə və proqramlarda, müxtəlif mövzular üzrə təlimlərdə, eləcə də təcrübəli rəhbər şəxslərlə mentorluq proseslərində iştirak imkanı əldə edirlər.

# "DÜNYA STANDARTLARI: XXI ƏSRİN TƏHSİL SİSTEMİNİ NECƏ QURMALI" KİTABININ ÇAPI

Təhsilin İnkişafı Fondunun maliyyə dəstəyi ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) təhsil və bacarıqlar üzrə direktoru, təhsil üzrə baş müşaviri, PISA-nın (Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramı) rəhbəri Andreas Şleyxerin "Dünya standartları: XXI əsrin təhsil sistemini necə qurmalı" kitabı 1000 ədəd çap edilib. Kitab Azərbaycan müəllimlərinin XVI qurultayının iştirakçılarına təqdim olunub.



# XÜLASƏ

2023-cü il ərzində Təhsilin İnkişafı Fondu tərəfindən dövlət – universitet – sənaye tərəfdaşlığının inkişafı üçün önəmli işlər görülüb. 1 noyabr 2023-cü ildə baş tutmuş Təhsilin İnkişafı Forumu, bir sıra dövlət, özəl və təhsil müəssisəsini birləşdirən Dialoq və Əməkdaşlıq Platforması, həmçinin "InMerge Innovation Summit"i çərçivəsində İnnovasiya və Startap ekosisteminin inkişafı üçün əməkdaşlıqla bağlı imzalanmış Anlaşma Memorandumu və digər fəaliyyətlər bu istiqamətdə atılan mühüm addımlardır.

"Gənc qızların təhsilinə dəstək", "Parla" təqaüd və inkişaf proqramı, "Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanlarının IELTS imtahanına təşviq edilməsi", "Maya Hacıyeva adına İKT bacarıqları" təqaüd proqramı, "Gənc innovatorlar" startap müsabiqəsi, "Təhsilin inkişafında innovativ metodlar" müsabiqəsi, "Məktəblərə kitab ianəsi" və digər layihə və təşəbbüslərin dayanıqlılığının təmin olunması məqsədilə uzunmüddətli tərəfdaşlıqların sayı artırılıb.

2022-ci ildən əməkdaşlıq etdiyimiz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, bp Azerbaijan, British Council, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, "Best Comp Group" MMC, Türkiyə Təhsil Dərnəyi, TED Universiteti ilə tərəfdaşlığımız davam etdirilib. Dövlət Məşğulluq Agentliyi, SOCAR, "NEQSOL Holding", "Azərsun Holdinq", Azerconnect, ABB, STP Şirkətlər Qrupu, "Silk Vey Vest Aviaşirkəti" MMC, SABAH.HUB, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi, "Women in Tech" beynəlxalq təşkilatının Azərbaycan nümayəndəliyi, "Nargis" jurnalı, "Coursera", Professional IT, Supply-A, "İnci Group of Companies" ilə əməkdaşlıq qurulub.

# TƏRƏFDAŞLAR

TKTA – Təhsildə Keyfiyyət Təminatı Agentliyi

ELM VƏ ALİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

MÜTDA

ARTİ – AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ

4SİM – DÖRDÜNCÜ SƏNAYE İNQİLABININ TƏHLİLİ VƏ KOORDİNASİYA MƏRKƏZİ

KOBİA – Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

SABAH.HUB

KİÇİK VƏ ORTA BİZNES SUBYEKTLƏRİ VƏ KLUBLARININ ASSOSİASİYASI

Kapital Bank

BİLİŞİM VADİSİ

coursera

NEQSOL HOLDING

silkway west airlines

bp

SOCAR

ABB – Azərbaycan Beynəlxalq Bankı

STP şirkətlər qrupu

AZERSUN

VISA

Lenovo

BESTCOMP GROUP

inci GROUP OF COMPANIES

WOMEN in TECH

azerconnect

AZƏRBAYCAN NƏŞRİYYATLARI ASSOSİASİYASI

t-network

Baku Design Academy

BRITISH COUNCIL

PSG KAPITAL

PROFESSIONAL IT

BAKI GƏNCLƏR MƏRKƏZİ

bir tələbə könüllü

MLK TECH GROUP

@tif.edu.az

Education Development Fund

@tif.edu.az

@tif.edu.az